*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11 (3) 2024*

*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received:17.02.2024*
*Kabul tarihi |Accepted:15.04.2024*
*Yayın tarihi |Published:25.06.2024*

**Balamirzə Məmmədli**

*https://orcid.org/0009-0007-4506-4840*
*PhD, Baku State University, Azerbaijan, balamirzamammadli@gmail.com*

*Atıf Künyesi | Citation Info*

Məmmədli, B. (2024). Böyük Buş administrasiyası dövründə ABŞ-Azərbaycan münasibətləri Vətən tarixşünaslığında. *Akademik Tarih ve Düşünce Dergisi, 11* (3), 1605-1629.

# Böyük Buş administrasiyası dövründə ABŞ-Azərbaycan münasibətləri Vətən tarixşünaslığında

***Öz***

*Sovet İttifaqının dağılması ilə dünyanın yeganə supergücünə çevrilmiş ABŞ-ın Azərbaycan Respublikası ilə ilk münasibətləri Böyük Buş (Corc Herber Volker Buş) administrasiyası dövrünə təsadüf edir. ABŞ nəinki Cənubi Qafqazda, eləcə də bütün dünyada ən mühüm geostrateji möqveyə malik dövlətlərdən biri olan, öz dövlət müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanla ilk vaxtlardan diplomatik münasibətlər qurmaq marağında olmuşdur. Azərbaycanın da müstəqil xarici siyasət kursunda ABŞ ilə münasibətlər ən erkən vaxtlardan etibarən olduqca böyük əhəmiyyət kəsb etmişdir və etməkdədir. Böyük Buşun prezidentliyi illərində (1989, yanvar – 1993, yanvar) ABŞ və Azərbaycan arasında ilk siyasi-diplomatik münasibətlərin qurulması sahəsində bir sıra əməli addımlar atılsa da, bütövlükdə bu dövrdə iki ölkə arasında münasibətlər mürəkkəb, ziddiyyətli və anlaşılmaz xarakter kəsb etmişdir. Sözügedən dövr Vətən tarixşünaslığında mühüm tədqiqat obyekti olmuş, bir çox müəlliflərin araşdırmalarında öz əksini tapmışdır. Məqalədə həmin tarixşünaslıq materiallarının müqayisəli təhlili və ümumiləşdirmələr əsasında Böyük Buş administrasiyası dövründə ABŞ-Azərbaycan münasibətləri tədqiq edilir.*

***Açar sözlər:*** *Azərbaycan, ABŞ, Böyük Buş, xarici siyasət, "Azadlığı müdafiə aktı", 907-ci düzəliş, Vətən tarixşünaslığı*

Creative Commons Licence BY NC

# US-Azerbaijan relations during the Senior Bush administration in Azerbaijani historiography

***Abstract***

*After the collapse of the Soviet Union, the United States became the world's sole superpower and its first relations with the Republic of Azerbaijan coincided with the administration of Bush the Great (George Herbert Volker Bush). The US is interested in establishing diplomatic relations with Azerbaijan, one of the most important geostrategic countries, not only in the South Caucasus but also in the whole world. Relations with the US have been and continue to be very important since the early stages of Azerbaijan's independent foreign policy. During the years of the Bush presidency (1989, January - 1993, January), a number of practical steps were taken in the field of establishing the first political-diplomatic relations between the United States of America and Azerbaijan, but in general, during this period, relations between the two countries became complex, contradictory and incomprehensible. This period has been an important subject of research in Azerbaijani historiography and has been reflected in the researches of many authors. The article analyses the US-Azerbaijan relations during the Bush administration on the basis of comparative analysis and generalisation of these historical materials.*

***Keywords:*** *Azerbaijan, USA, Bush, foreign policy, "Defence of Freedom Act", 907th Amendment, Homeland historiography*

## Giriş

Azərbaycanın planetimizin əsas fövqəldövləti və nəhəng güc mərkəzlərindən biri olan ABŞ ilə münasibətlərinin tarixi kökləri XIX əsrin ikinci yarısına gedib çıxır. Belə ki, hələ XIX yüzilliyin 70-80-ci illərdə ölkəmizdə təşəkkül və inkişaf edən neft sənayesi digər aparıcı Qərb dövlətləri kimi ABŞ-ın da nəhəng neft şirkətlərinin, xüsusilə “bəşər tarixində ilk milyarder” sayılan görkəmli iş adamı C.Rokfellerin yenicə yaratdığı “Standart Oyl” neft korporasiyasının diqqətini özünə cəlb etmişdir (Məmmədli, 2023, s. 273). Azərbaycan Xalq Cümhuriyyəti dövründə ABŞ arasında diplomatik əlaqələrin qurulması yolunda ilk addım Paris sülh konfransı zamanı atılmışdır. Bakıda Amerika konsulluğu açılmış, bir sıra iqtisadi müqavilələr bağlanmışdır (Həsənov, 1998, s. 145). Azərbaycanın Sovet İttifaqının tərkibinə daxil olduğu 70 illik dönəmdə isə, iki ölkə arasında hər hansı rəsmi münasibətlər mövcud olmamışdır. 1991-ci ildə SSRİ-nin süqutu ilə öz dövlət müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan Respublikası müstəqil xarici siyasət xətti yürütməyə başladıqda, digər postsovet ölkələri kimi onun da xarici siyasət prioritetlərini qabaqcıl dünya dövlətləri ilə ilk diplomatik münasibətlərin qurulması, müstəqillimizin rəsmi tanınması təşkil etdi. Bu zaman Azərbaycanın xarici siyasətində ən mühüm istiqamətlərindən birini SSRİ-nin

dağılması ilə dünyanın yeganə supergücünə çevrilmiş ABŞ ilə münasibətlər təşkil etməyə başlamışdır. Bu dövr tarixşünaslıqda “Böyük Buş” və “Ata Buş” kimi də tanınan, ABŞ-ın 41-ci prezidenti Corc Herbert Volker Buşun rəhbərliyi illərinə təsadüf edir. Böyük Buş administrasiyası dövründə ABŞ-ın xarici siyasətində yeni müstəqillik qazanan dövlətlərlə, o cümlədən zəngin karbohidrogen ehtiyatlarına malik olması səbəbindən öz iqtisadi potensialı və Cənubi Qafqazda yerləşdiyi əlverişli geostrateji mövqeyi ilə seçilən Azərbaycan Respublikası ilə ilk siyasi-diplomatik münasibətlərin yaradılması mühüm yer tutmuşdur. Sözügedən dönəmdə hər iki tərəf – həm ABŞ, həm Azərbaycan hər nə qədər qarşılıqlı faydalı münasibətlərin və əməkdaşlığın yaradılmasında maraqlı olsalar da, Böyük Buş administrasiyası dövründə ikitərəfli münasibətlərdəki anlaşılmazlıqlar və ziddiyyətlər buna mane olmuşdur. Böyük Buşun prezidentliyi illərində ABŞ-Azərbaycan münasibətləri Vətən tarixşünaslığında bu günə kimi mühüm tədqiqat obyekti olmuş, bir çox tarixçilər, politoloqlar tərəfindən araşdırılmışdır.

## I.ABŞ-Azərbaycan Respublikası münasibətləri problemi üzrə Vətən tarixşünaslığındakı tədqiqat əsərlərinin qısa xarakteristikası

Azərbaycan tarixşünaslığında sözügedən problemin tədqiqatçıları sırasında Elman Nəsirov, Əli Həsənov, Musa Qasımlı, Hafiz Paşayev, Füzuli İsmayılov, Utarida Hüseynova, Nadirə Bədəlbəyli, Aynur Bəşirova, Əsmər Nəsibova, Xatirə Heydərova, Bircə Bayramova, Şəhriyar Məmmədov, Səbinə Qaraşova, Elşən Nəsibov, Aygün Kamandari-Məmmədova, İsa Hüseynov, Fuad Çıraqov, Raminə Hüseynli və d. müəlliflərin adlarını qeyd etmək olar.

Azərbaycan Respublikası-ABŞ münasibətləri probleminin öyrənilməsi üzrə Vətən tarixşünaslığında ilk tədqiqat əsərləri 1990-cı illərin ikinci yarısında meydana gəlməyə başladı ki, bunlardan biri Musa Qasımlının 1996-cı ildə nəşr olunmuş və 7 fəsildən ibarət olan “Azərbaycan beynəlxalq münasibətlər sistemində: 1991-1995-ci illər” adlı əsəridir. Həmin tədqiqat əsərində Azərbaycan Respublikasının müstəqilliyinin ilk beş ilində onun beynəlxalq münasibətlərdə tutduğu yer ümumi şəkildə nəzərdən keçirilmişdir. Sözügedən əsərin “ABŞ-la münasibətlər” adlı IV fəslində 1991-1995-ci illərdə Azərbaycan-ABŞ münasibətləri qısa şəkildə analiz edilməsinə baxmayaraq, o, problemin tədqiqi üçün ilk istiqamətverici əsər hesab edilə bilər (Qasımlı, 1996, s. 61-67). Müəllifin 2015-ci ildə nəşr edilmiş “Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003)” adlı irihəcmli monoqrafiyasının ikinci hissəsində ölkəmizin xarici siyasətinin mahiyyət və xarakteri, o cümlədən ABŞ ilə münasibətləri geniş və müfəssəl şəkildə tədqiq olunmuşdur (Qasımlı, 2015, s. 149-256). Əli Həsənovun 1997-ci ildə nəşr olunmuş “Azərbaycan-ABŞ:

anlaşılmaz münasibətlərdən strateji tərəfdaşlığa doğru: (oktyabr 1991-avqust 1997)" adlı tədqiqat əsəri XX əsrin sonlarında Azərbaycan-ABŞ münasibətləri probleminin Vətən tarixşünaslığında ilk tədqiqat əsərlərindən biri kimi mühüm əhəmiyyət kəsb edir (Həsənov, 1997). Adından da göründüyü kimi, xronoloji çərçivəsi müstəqilliyimizin ilk illərini – 1991-1997-cı illəri əhatə edən bu əsər Azərbaycan Respublikası ilə ABŞ arasında ilk diplomatik münasibətlərin qurulması tarixinin öyrənilməsinə həsr edilmişdir. Müəllifin 1998-ci ildə nəşr edilmiş, struktur baxımdan ön söz, 4 fəsil və nəticədən ibarət olan "Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996)" monoqrafiyasının "Azərbaycanın xarici siyasəti və Amerika Birləşmiş Ştatları" adlanan III fəsli biləvasitə XX əsrin sonlarında Azərbaycan-ABŞ münasibətləri probleminin tədqiqinə həsr olunmuşdur (Həsənov, 1998). Elman Nəsirovun 1998-ci ildə nəşr olunmuş "Azərbaycan-ABŞ münasibətləri (1991-1997-ci illər)" adlı monoqrafiyası 1991-ci ildə öz müstəqilliyini bərpa etməsindən 1997-ci ilə qədər olan 6 illik zaman kəsiyində Azərbaycan Respublikasının ABŞ ilə ilk siyasi-diplomatik, iqtisadi-ticarət və humanitar əlaqələrinin kompleks şəkildə araşdırılması baxımından diqqəti cəlb edir (Nəsirov, 1998). Müəllif 1991-1997-ci illərdə Azərbaycan-ABŞ münasibətlərinin keçdiyi inkişaf yolunu 5 mərhələyə bölərək verilmiş xronoloji çərçivədə ikitərəfli münasibətlərin yüksəldilməsi istiqamətində atılan konkret addımları müəyyənləşdirməklə yanaşı, əlaqələrin genişləndirilməsinə əngəl yaradan problematik məsələlərə də diqqət çəkərək onların aradan qaldırılmasına yönəlmiş bir sıra təklif irəli sürmüşdür. Bu baxımdan, sözügedən monoqrafiyanı XX əsrin sonlarında Azərbaycan-ABŞ müasibətləri probleminin Vətən tarixşünaslığı üçün ən böyük töhfələrdən biri hesab etmək olar.

Füzuli İsmayılovun 2001-ci ildə işıq üzü görən "Qarabağ konflikti ABŞ-ın qlobal siyasəti kontekstində" adlı tədqiqat əsərində Azərbaycan Respublikası və ABŞ arasında ilk diplomatik münasibətlərin qurulmasından başlamış 2001-ci ilə qədər olan onillik ərzində Azərbaycanın ABŞ ilə münasibətləri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi kontekstində təhlil edilmiş, münaqişənin həllində ABŞ-ın mövqeyi geniş şəkildə araşdırılmışdır (İsmayılov, 2001). Zaur Əliyevin 2001-ci ildə nəşr olunmuş "Beynəlxalq münasibətlərdə diasporların rolu" adlı əsərində ikinci fəslin "907-ci düzəliş və erməni-Azərbaycan diasporlarının mübarizəsi" başlıqlı yarımfəsli XX əsrin sonlarında Azərbaycanın ABŞ ilə münasibətlərində çox mühüm məqam olan "907-ci düzəliş" probleminin araşdırılmasını həsr edilmişdir (Əliyev, 2001, s. 118-139). Abbas Piriyevin 2005-ci ildə nəşr olunmuş "Siyasi strategiya və milli təhlükəsizlik" adlı irihəcmli

monoqrafiyasında dünya dövlətlərinin, o cümlədən ABŞ-ın siyasi strategiyasının əsas istiqamətləri və milli təhlükəsizlik problemi araşdırılmışdır. Giriş, 4 fəsil, nəticədən ibarət olan monoqrafiyanın III fəslində Azərbaycan Respublikası ilə ABŞ arasında strateji əməkdaşlıq ayrıca tədqiq edilmişdir (Piriyev, 2005, s. 229-247). Azərbaycanın ABŞ-dakı ilk səfiri, eyni zamanda tədqiqatçı-alim Hafiz Paşayevin edilmiş "Bir səfirin manifesti" və "Yüksəkliyə doğru" adlı kitabları ABŞ-Azərbaycan münasibətləri probleminin Vətən tarixşünaslığına mühüm töhfə olmaqla yanaşı, həm də problemin mənbəşünaslıq bazasını zənginləşdirən tədqiqat əsərləridir. Elşən Nəsibov 2006-cı ildə nəşr olunmuş "ABŞ və Türkiyənin Qafqaz geosiyasi regionunda strateji maraqları və Azərbaycan Respublikası" adlı monoqrafiyasında XX əsrin sonu-XXI əsrin başlanğıcında ABŞ-ın Cənubi Qafqaz regionundakı iqtisadi, hərbi-siyasi və təhlükəsizlik strategiyasından ibarət geostrateji maraqları kontekstində Azərbaycan-ABŞ münasibətlərinin bir sıra mühüm məqamlarını təhlil etmişdir ki, monoqrafiyanın "ABŞ-ın Qafqaz regionunda geostrateji maraqları" adlanan birinci fəsli bu baxımdan xüsusilə diqqəti cəlb edir (Nəsibov, 2006, s. 24-121). İsmayıl Musanın 2011-ci ildə nəşr olunmuş üç hissədən ibarət olan "Çağdaş beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti" adlı irihəcmli kitabının üçüncü hissəsində "Azərbaycan Respublikasının Qərb dövlətləri ilə münasibətləri" adlanan ayrıca bir bölmədə (IV bölüm) Azərbaycanın əsas Qərb dövləti olan ABŞ ilə münasibətlərinin xarakteri və perspektivləri analitik tərzdə tədqiq edilmişdir (Musa, 2011, s. 507-534). Mahir İbrahimovun 2020-ci ildə nəşr edilmiş "Sahilyanı dövlətlərin xarici siyasətində Xəzər problemi (XX əsrin sonu–XXI əsrin əvvəlləri)" adlı monoqrafiyasında müasir dövrdə formalaşmış yeni tarixi şəraitdə Xəzər bölgəsinin müxtəlif aparıcı dövlətlərin, o cümlədən ABŞ-ın maraq dairələrindəki oynadığı rola ətraflı nəzər salınmış, onun regional və beynəlxalq əməkdaşlığa təsir imkanları öyrənilmişdir. Ramilə Dadaşovanın 2021-ci ildə nəşr olunmuş, giriş, 6 fəsil və nəticədən ibarət olan "Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasının daimi üzvləri ilə əməkdaşlığı" adlı monoqrafiyası da XXI əsrdə Azərbaycan-ABŞ münasibətlərinin bir sıra aspektlərinin araşdırılması baxımından diqqəti cəlb edir (Dadaşova, 2021, s. 134-148).

Azərbaycan Respublikasının ABŞ ilə münasibətləri Vətən tarixşünaslığında monoqrafiya, dərslik, elmi məqalələr və s. ilə yanaşı, çoxsaylı dissertasiya işlərində də öz əksini tapmışdır. Utarida Hüseynovanın "Azərbaycan Respublikası ABŞ-ın xarici siyasət maraqlarında" adlı namizədlik dissertasiyasında ABŞ-ın bütövlükdə Qafqaz regionundakı siyasi, iqtisadi və geostrateji maraqları kontekstində XX əsrin sonlarında Azərbaycan-ABŞ münasibətləri tədqiq edilmişdir (Guseynova, 2003). Nadirə Bədəlbəylinin "Azərbaycan Respublikası ilə ABŞ-ın elmi

və mədəni əlaqələri (XX əsrin 90-cı illəri)" adlı namizədlik dissertasiyasında Azərbaycanın müstəqilliyini bərpa etdiyi ilk illərdə ABŞ ilə elm, təhsil və mədəni sahədə əlaqələri tədqiqat obyektidir (Badalbeyli, 2005). Səbinə Qaraşovanın "Rusiya və ABŞ-ın Cənubi Qafqazda geostrateji maraqları" adlı namizədlik dissertasiyasında müasir beynəlxalq-siyasi münasibətlər sistemində dünyanın iki nəhəng güc mərkəzinin ABŞ və Rusiya Federasiyasının Cənubi Qafqaz regionundakı geostrateji maraqları kontekstində bu iki dövlətin Cənubi Qafqaz respublikaları ilə siyasi münasibətləri də təhlil edilmişdir (Garashova, 2005). Aynur Bəşirovanın "Azərbaycan-ABŞ münasibətləri Amerika mətbuatında" adlı namizədlik dissertasiyasında 1991-ci ildən 2001-ci ilə qədər olan dövrdə Azərbaycan-ABŞ münasibətləri biləvasitə Amerika mətbuat orqanlarının səhifələrində dərc olunmuş məlumatlar, xüsusən də hələ 1851-ci ildən buraxılan və ABŞ-ın ən böyük tirajlı qəzetlərindən biri olan "Nyu York Tayms" qəzetinin materialları əsasında tədqiq olunmuşdur (Bəşirova, 2007). Bahar Hüseynin "ABŞ-ın Cənubi Qafqaz siyasətində neft amili" və Əsmər Nəsibovanın "Azərbaycan Respublikasının neft strategiyası və ABŞ-ın Qafqaz siyasəti (1991-2008-ci illər)" adlı fəlsəfə doktoru dissertasiyalarında müasir dövr Azərbaycan-ABŞ münasibətləri neft amili kontekstində tədqiq edilmiş, ABŞ-ın xarici siyasətində Cənubi Qafqazın yeri və rolu prizmasında nəzərindən keçirilmişdir (Hüseyn, 2013; Nəsibova, 2014). Xatirə Heydərovanın "ABŞ-ın Cənubi Qafqaz siyasəti kontekstində ABŞ-Azərbaycan Respublikası münasibətləri" adlı fəlsəfə doktoru dissertasiyasında XX əsrin sonu-XXI əsrin başlanğıcında ABŞ-Azərbaycan münasibətləri bütövlükdə ABŞ-ın Cənubi Qafqaz regionu üzrə siyasəti nöqteyi-nəzərdən araşdırılmışdır (Heydərova, 2017). Aygün Kamandari-Məmmədovanın "ABŞ-da Azərbaycan diasporunun lobbiçilik fəaliyyəti" və İsa Hüseynovun "ABŞ-da Azərbaycan diasporunun yaranması və inkişafı (XX əsrin sonu-XXI əsrin əvvəlləri)" adlı fəlsəfə doktoru dissertasiyalarında Azərbaycan-ABŞ münasibətlərinin bir sıra mühüm aspektləri ABŞ-da Azərbaycan diasporu və lobbisinin formalaşması və mövcudluğu kontekstində tədqiq edilmişdir (Kamandari-Məmmədova, 2017; Hüseynov, 2022). Şəhriyar Məmmədovun "Azərbaycan Respublikasının ABŞ-la münasibətləri: siyasi təhlil" adlı fəlsəfə doktoru dissertasiyasında XX əsrin sonları-XXI əsrin əvvəllərində iki ölkə arasındakı münasibətlər elmi-politoloji prizmadan təhlil edilmişdir (Məmmədov, 2018). Raminə Hüseynlinin "Azərbaycan və ABŞ beynəlxalq terrorizmə qarşı mübarizədə" adlı fəlsəfə doktoru dissertasiyasında XXI əsrdə qlobal xarakter alaraq bütün bəşəriyyət üçün son dərəcə ciddi təhlükəyə çevrilmiş terrorizm bəlasına qarşı

ölkəmizin ABŞ ilə birgə mübarizəsi kontekstində ikitərəfli münasibətlər geniş şəkildə nəzərdən keçirilmiş, siyasi, iqtisadi, hərbi, təhlükəsizlik və digər sahələrdə iki ölkə arasında əməkdaşlıq araşdırılmışdır ki, bu da onu Azərbaycan-ABŞ münasibətləri probleminin Vətən tarixşünaslığına mühüm töhfə kimi xarakterizə etməyə əsas verir (Hüseynli, 2023).

## II. ABŞ tərəfindən Azərbaycanın dövlət müstəqilliyinin tanınması və ilk diplomatik münasibətlərin qurulması Vətən tarixşünaslığında

Azərbaycanın müstəqillik qazandığı ilk günlərdən başlayaraq ABŞ ilə münasibətlər diqqət mərkəzində olmuşdur. Vətən tarixşünaslığında birmənalı şəkildə vurğulanır ki, ABŞ ölkəmizin müstəqilliyini rəsmi şəkildə tanıyan ilk dünya dövlətlərindən biridir. Belə ki, ABŞ Prezidenti Corc Buş (böyük) artıq 1991-ci ilin dekabrın 25-də, yəni "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı"nın qəbul edilməsindən cəmi 2 ay sonra müstəqil Azərbaycan dövlətini rəsmi tanıdığını bəyan etmişdir (Həsənov, 1998, s. 145). Lakin, N.Cəfərsoyun qeyd etdiyi kimi, dekabrın 25-də Azərbaycanın dövlət müstəqilliyini tanıdığını rəsmi olaraq bildirən ABŞ Prezidenti C.Buş Azərbaycanın ilk prezidenti A.Mütəllibova məktub yazaraq iki ölkə arasında münasibətlərin qurulması üzrə 5 prinsip irəli sürdü (Cafersoy, 2001, s.136). Burada ABŞ açıq şəkildə bildirirdi ki, o, keçmiş SSRİ (postsovet) məkanında çoxsaylı nüvə dövlətinin mövcudluğunda maraqlı deyil və buna görə də, Azərbaycan BMT Baş Assembleyasının 1968-ci ildə qəbul etdiyi "Nüvə silahlarının yayılmaması haqqında" müqaviləni imzalamalı, "nüvə silahı olmayan ölkə" statusuna malik olmalıdır. ABŞ Prezidentinin məktubunda göstərilən digər prinsiplərə siyasi islahatlar zamanı qanunlara riayət olunması və demokratik üsullardan istifadə olunması; insan haqları və etnik azlıqların hüquqlarının qorunması; milli siyasətin beynəlxalq normalara uyğunluğu; Azərbaycan Sovet dövründən qalma köhnə iqtisadi sistemdən imtina edərək azad bazar iqtisadiyyatına keçməsi daxil idi. Azərbaycan Prezidenti A.Mütəllibov ABŞ Prezidentinə cavab məktubu göndərərək bəyan etdi ki, ABŞ ilə müstəqil münasibətlər qurmaq niyyətində olan Azərbaycan Respublikası bütün prinsiplərə riayət etdiyini, o cümlədən 5-ci prinsiplə bağlı səylər göstərəcəyini bildirir. Beləliklə, M.Qasımlının yazdığı kimi: "Həmin məktublarla iki ölkə arasında münasibətlərdə ilk addımlar atıldı" (Qasımlı, 2015, s. 153).

Azərbaycanın ABŞ ilə ilk diplomatik münasibətlərin qurulması sahəsində ilkin əməli addımların atılması 1992-ci ilin əvvəllərinə təsadüf edir. Belə ki, 1992-ci ilin fevralın 12-də ABŞ dövlət katibi Ceyms Beykerin Bakıya işgüzar səfər etdi ki, bu da çox vaxt Vətən tarixşünaslığında iki ölkə arasında rəsmi diplomatik münasibətlərin başlanması kimi xarakterizə edilir (Həsənov,

1997, s.30). N. Məmmədov yazır ki, Beyker iki ölkə arasında rəsmi münasibətlər yaratmaq məqsədilə ilə gəlmişdi (Məmmədov, 2013, s. 133). M. Qasımlı həmin səfərin məqsədini belə izah edir:

*"ABŞ hökuməti regionda baş verən proseslər, xüsusilə də Dağlıq Qarabağ münaqişəsinin dərinləşməsindən, SSRİ-nin dağılmasından sonra İranın Cənubi Qafqaz regionunda fəallaşmasından narahatlıq hissi keçirirdi. ...Həmin məsələlərin müzakirəsinə ehtiyac duyulurdu"* (Qasımlı, 2015, s. 153).

Bakıya səfəri zamanı C.Beyker bildirdi ki, ölkəsinin Cənubi Qafqaz regionu ilə bağlı xarici siyasətinin prioritetləri hələlik formalaşmamışdır (Qaraşova, 2018, s. 283). Elə buna görədir ki, Beyker səfərin gedişində yenicə müstəqillik əldə etmiş Azərbaycanın daxili və xarici siyasəti, iqtisadi islahatlar, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı rəsmi Bakıdan geniş məlumat aldı, ABŞ-ın ölkəmiz ilə gələcək əlaqələrinin mühüm aspektləri müzakirə edildi. Səfərdən geri qayıdan C. Beyker ABŞ hökumətinə Azərbaycan ilə rəsmi diplomatik əlaqələrin qurulmasını tövsiyə etdi. U. Hüseynovanın fikrincə, məhz C. Beykerin Bakıya ilk rəsmi səfəri ilə ABŞ-ın Azərbaycanda strateji maraqlarının əsasının qoyulması başlanıldı (Guseynova, 2000, c.78). Beykerin Bakıya səfərinin yeni geosiyasi reallıqların yarandığı dövrə təsadüf etdiyini yazan G. Quliyeva göstərir ki, C. Beyker ABŞ-ın siyasi palitrasında "paralel münasibət" konsepsiyası ilə tanınmışdı: *"Həmin konsepsiyaya görə, ABŞ hökuməti təkcə Rusiya ilə deyil, həmçinin yeni müstəqil respublikalarla diplomatik münasibətlər yaratmalı və hər bir ölkəyə ayrıca yardım göstərməlidir"* (Quliyeva, 2010, s.84). Beykerin səfərindən 5 gün sonra – fevralın 17-də ABŞ dövlət katibinin şəxsi nümayəndəsi, xüsusi tapşırıqlar üzrə səfir N. Sanqoya Bakıya səfər edərək Azərbaycanın dövlət katibi M.Abbasovla görüşdü və onlar iki ölkə arasında diplomatik əlaqələrin qurulması, habelə Bakıda ABŞ səfirliyinin açılması məsələlərini müzakirə etdilər (Nəsirov, 1998, s. 22). 1992-ci ilin martında Vaşinqton şəhərində Azərbaycan səfirliyi, noyabrında isə, Azərbaycanın paytaxtında ABŞ səfirliyi açıldı. Beləliklə, bütün bu hadisələrlə Azərbaycan ilə ABŞ arasında rəsmi diplomatik münasibətlər qurulmuş oldu.

Azərbaycan ilə ABŞ arasında ilk diplomatik münasibətlərin qurulduğu dövr ölkəmizin ağır dönəmlərinə – Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin müharibə mərhələsinə keçid etməsi ilə səciyyələnir. Qarabağdakı münaqişə üzrə Azərbaycan-ABŞ danışıqlarının ilk vaxtından Birləşmiş Ştatlar münaqişənin Avropada Təhlükəsizlik və Əməkdaşlıq üzrə Müşavirə

(ATƏM; 1 yanvar 1995-ci ildən ATƏT adlandırılmışdır – B.M.) çərçivəsində həllinə tərəfdar çıxdığını bildirdi. Artıq 1992-ci ilin martın 24-də münaqişənin həlli üzrə ATƏM-in Minsk qrupu yaradıldı (Əhmədov, 2015, s. 23). 1992-ci ilin aprelində ABŞ hökuməti Senatın ATƏM üzrə komissiyasının sədri senator D. Dekonsininin rəhbərliyi ilə ABŞ Konqresinin nümayəndə heyətini Bakıya göndərdi. İ. Musa ABŞ rəsmilərinin Azərbaycanı öyrənmək səciyyəli bu səfərini "kəşfiyyat missiyaları" kimi xarakterizə edir (Musa, 2011, s. 507). Ə. Həsənov isə, bu səfərlə bağlı yazır: *"Sözsüz ki, bütün bu nümayəndə heyətləri Azərbaycanı hərtərəfli öyrənir, bu dövlətə münasibətdə ABŞ-ın gələcək xarici siyasətinin konturlarını müəyyənləşdirir"* (Həsənov, 1998, s. 145-146). Həmin səfərdən qısa müddət sonra – 1992-ci ilin mayında Şuşa və Laçın Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. Bu, açıq-aşkar beynəlxalq hüququn əleyhinə, xüsusilə ATƏM-in Helsinki yekun aktına (1975) zidd idi. Buna görə də, mayın 19-da ABŞ Dövlət Departamenti Azərbaycan ərazisinin zor gücü ilə işğalını tanımayacağını bildirən bəyanat verdi. Bu zaman demokratiya və ədalət prinsiplərini əsas tutan ABŞ rəhbərliyi Azərbaycan üçün çox dəyərli olan belə bir məqamı vurğuladı: *"ABŞ hər hansı bir ərazinin statusunun zorakılıq əsasında birtərəfli qaydada dəyişdirilməsi ilə razılaşmayacaqdır"* (Musa, 2011, s. 507). Nəinki Vətən tarixşünaslığında, eləcə də xarici tarixşünaslıqda bu fakt birmənalı olaraq ABŞ-ın obyektiv və ədalətli mövqeyi kimi qiymətləndirilir.

1992-ci ilin may-iyununda Azərbaycanda hakimiyyət dəyişikliyi və Əbülfəz Elçibəyin yeni prezident seçilməsindən sonra ABŞ rəsmi dairələri bir daha böyük geostrateji əhəmiyyətə malik Azərbaycan Respublikası ilə əlaqələri genişləndirməyə, regiondakı ictimai-siyasi və hərbi problemlərə fəal müdaxilə etməyə cəhdlər göstərdilər. Elə bu məqsədlə 1992-ci ilin iyulunda – ATƏM-in Helsinki sammiti ərəfəsində ABŞ Prezidenti C. Buş Azərbaycan Prezidentinə məktubla müraciət edərək öz ölkəsinin Azərbaycan ilə bütün sferalarda əlaqələr yaratmağa, münasibətləri inkişaf etdirməyə hazır olduğunu bildirdi. Bu zaman Ağ Evin başçısı Azərbaycan Respublikasının prezidenti Ə.Elçibəyə göndərdiyi təbrik məktubunda yazırdı: "Azərbaycanda demokratiya və azad bazar münasibətləri yaratmaq işinə sədaqətinizi alqışlayıram" (Musa, 2011, s. 508). Lakin, Vətən tarixşünaslığında bir çox tədqiqatçılar qeyd edir ki, respublikanın o vaxtkı rəhbərliyi öz əvvəlki sələflərindən irəli gedə bilməyərək ABŞ-ın bu mühüm təşəbbüsünü lazımınca qiymətləndirməyi bacarmadı. Ə. Həsənov bunun səbəbini belə izah edir: *"Ölkənin siyasi dairələri o zaman belə hesab edirdilər ki, guya Azərbaycanın müstəqil dövlətçilik maraqları və Rusiyanın bu bölgədəki təsirini zəiflətmək istəyi ABŞ üçün elə bir həyati əhəmiyyət kəsb edir ki, Azərbaycanın bütün problemlərini*

*ABŞ və Avropa dövlətləri (xüsusilə Türkiyə) özləri həll edəcək. Onlar düşünürdülər ki, Azərbaycan Rusiya ilə hesablaşmamaq və ona qarşı "mübarizə" elan etməklə öz işini bitmiş saymalıdır"* (Həsənov, 1998, s. 147).

Beləliklə, Ə. Həsənov Ermənistanın işğalçı siyasəti özünün ən yüksək səviyyəsinə çatdığı bir dönəmdə Elçibəy hökumətinin həyata keçirdiyi xarici siyasət kursunun nəticəsini ölkəmizin ATƏM-in Helsinki sammitində ABŞ kimi fövqəldövlətin dəstəyindən lazımınca yararlana bilməməsində göstərir: "*Azərbaycan Helsinki sammitində iştirak etdi, lakin işğalçı Ermənistan rəhbərliyinin torpaqlarımıza təcavüzü məsələsini sammitin gündəliyinə salmağa nail ola bilmədi*" (Həsənov, 1997, s. 12). Ə.Nəsibova da eyni mövqedən çıxış edərək yazır ki, Azərbaycanın həmin vaxtkı rəhbərliyi beynəlxalq vəziyyəti dövlətin maraqları naminə istifadə edə bilmədi və nə Helsinki sammitində, nə də digər beynəlxalq məclislərdə uğurlu addımlar ata bilmədi (Nəsibova, 2014, s. 51).

### III. ABŞ Konqresi tərəfindən "Azadlığı müdafiə aktı"nın 907-ci maddəsinin qəbul edilməsinin ikitərəfli münasibətlərə təsirinə Vətən tarixşünaslığında baxış

Ümumilikdə, Azərbaycan Respublikası və ABŞ arasında siyasi-diplomatik münasibətlərin qurulduğu ilk illər Vətən tarixşünaslığında "anlaşılmaz münasibətlər" kimi xarakterizə edilir ki, bunun da ən mühüm səbəblərindən biri ABŞ Konqresində "Azadlığı müdafiə aktı"na əlavə edilmiş 907-ci maddədir. Bu, Azərbaycan tarixşünaslığında çox vaxt "907-ci düzəliş" kimi də qeyd olunur. Təsadüfi deyildir ki, 1992-2006-cı illərdə Azərbaycanın ABŞ-da ilk fövqəladə və səlahiyyətli səfiri olmuş Hafiz Paşayev bunu "Azərbaycan və ABŞ arasında ikitərəfli münasibətlərdə ilk maneə" kimi səciyyələndirir (Pashayev, 2006). Bu məsələnin mahiyyətini aydınlaşdırmaq üçün əvvəlcə "Azadlığı müdafiə aktı"nın nə olduğuna diqqət yetirmək lazımdır. Bəzən "Azadlığa dəstək aktı" kimi də tərcümə olunan "Azadlığı müdafiə aktı" (Freedom Support Act) və ya tam adı ilə "Rusiya və inkişaf etməkdə olan Avrasiyada demokratiyalara və açıq bazarlara dəstək aktı" (Freedom for Russia and Emerging Eurasian Democracies and Open Markets Support Act) SSRİ-nin mövcudluğuna xitam verilməsindən təqribən 3 ay sonra – 1992-ci ilin martın 24-də Konqres nümayəndəsi Dante Faskel tərəfindən qanun layihəsi kimi irəli sürülmüşdür. "Azadlığı müdafiə aktı" postsovet məkanındakı yeni müstəqil dövlətlərin demokratiya, açıq cəmiyyət və bazar iqtisadiyyatı yolunda irəliləməsi məqsədilə onlara ABŞ tərəfindən göstərilən maliyyə, texniki və digər yardımları nizama salaraq sistemləşdirməyə xidmət edirdi. Bununla yanaşı qeyd etmək

lazımdır ki, sözügedən akt eyni zamanda ABŞ-ın öz milli maraqlarına xidmət edirdi. Belə ki, “Azadlığı müdafiə aktı”nın həm də yeni respublikaların inkişafına dəstək verməklə onların yenidən vahid mərkəzə tabe etdirilməsinin qarşısını almaq, ABŞ-ın nüfuzunu keçmiş sovet respublikaları arasında yaymaq, yeni təsir rıçaqları əldə etmək kimi amerikan milli və siyasi maraqlarına xidmət etməsi qənaətinə gəlmək olar. Bununla belə, istənilən halda Sovet İttifaqının qalıqları üzərində ayağa qalxaraq öz dövlət müstəqilliyini möhkəmləndirməyə çalışan yeni respublikalar üçün hər cür xarici yardım həyati əhəmiyyət kəsb edirdi, o cümlədən də Azərbaycan üçün. Lakin, “Azadlığı müdafiə aktı”na ABŞ tərəfindən Azərbaycana istənilən növ yardım edilməsinə qadağa qoyulmasını nəzərdə tutan “907-ci maddə” (Section 907) də əlavə edildi. 907-ci maddəni özündə ehtiva edən sənəd Senatın Xarici İşlər üzrə Komitəsində müzakirəsi olunan zaman, Massaçusets ştatından olan senator Con Kerrinin təklifi ilə qanun layihəsinə daxil edilmişdi. Vətən tarixşünaslığında göstərilir ki, “Azadlığı müdafiə aktı” “demokratiyanın inkişafı və azad bazar iqtisadiyyatına keçid” məqsədi ilə 460 milyon ABŞ dolları həcmində yardımı nəzərdə tuturdu (Əliyev, 2001, s. 121; Qasımlı, 2015, s. 156).

907-ci maddədə göstərilirdi ki, Azərbaycan hökumətinin Ermənistana və Dağlıq Qarabağa qarşı bütün blokadalardan və qüvvələrdən təcavüzkarcasına istifadəsinin ləğvi sahəsində nümayişkəranə addımların atılmamasını prezident müəyyənləşdirməyənə kimi və bunu konqresə bildirməyənə kimi Azərbaycan hökumətinə yardım göstərilməyəcəkdir. Azərbaycanın de-yure olaraq beynəlxalq hüquqda tanınmış əraziləri Ermənistanın işğalçı ordusunun təcavüzünə məruz qaldığı halda, təcavüzkarın Azərbaycan tərəfi adlandırılması heç şübhəsiz ki, ədalətsiz və qərəzli bir qərar idi. Bu səbəbdəndir ki, Ə. Həsənov “Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti” adlı kitabında 907-ci maddəni “müstəqil dövlət quruculuğu yolunu tutmuş və zorla müharibəyə cəlb edilmiş Azərbaycan üçün çox ağır zərbə” kimi xarakterizə edir (Həsənov, 2005, s. 231). X. Heydərova sözügedən maddəni ikitərəfli münasibətlərə soyuqluq gətirən, Azərbaycan-ABŞ münasibətlərində ciddi problemlər yaradan amil adlandırır (Heydərova, 2013, s. 381). Vətən tarixşünaslığında bir çox tədqiqatçılar (R. Mehdiyev, A. Kamandari-Məmmədova, S. Qaraşova və d.) 907-ci maddənin “Azadlığı müdafiə aktı”na əlavə edilməsini ABŞ hökumətinin Azərbaycan və Ermənistanla bağlı xarici siyasətində ikili standartlardan çıxış etməsi kimi qiymətləndirirlər (Mehdiyev, 2015, s. 34; Kamandari-Məmmədova, 2017, s. 25; Qaraşova, 2018, s. 283).

"Kerri düzəlişi" kimi də tanınan və Azərbaycana qarşı yönəlmiş ədalətsiz 907-ci maddənin hansı səbəbdən qəbul edilməsi məsələsinə fərqli yanaşmalar Vətən tarixşünaslıqda geniş müzakirələr doğurmuşdur. Həmin mövqeləri əsasən 2 cür qruplaşdırmaq olar:

1) ABŞ-da güclü erməni diasporunun mövcudluğu və erməni lobbisinin aktiv fəaliyyəti;
2) Azərbaycan Respublikasında o vaxtkı iqtidarın – Ə. Elçibəy hökumətinin səriştəsiz xarici siyasəti.

Birinci yanaşma, yəni 907-ci maddənin erməni diasporu və lobbisinin fəaliyyətinin nəticəsi, "böyük qələbəsi" olması fikri nəinki Vətən tarixşünaslığında, eləcə də xarici tarixşünaslıqda çox geniş qəbul edilir. Məsələ burasındadır ki, hesablamalara görə ABŞ-da təqribi 800 mindən 1,5 milyona qədər erməni diasporu mövcuddur. Tarixi faktların müqayisəli təhlili zamanı bəlli olur ki, erməni diasporu və lobbisinin fəaliyyəti vaxtilə 1920-ci ildə də ABŞ-ın Azərbaycan Xalq Cümhuriyyətini tanımaqdan imtina edilməsinin əsas səbəbi olmuşdur. Belə ki, Ağ Ev həmin ildə Ermənistan Respublikasını tandığı halda, Cümhuriyyəti tanımaqdan imtina etmişdi. Bu fakt erməni diasporunun hələ keçən əsrin əvvəllərindən bütün dünya ölkələrində olduğu kimi, ABŞ-da da müntəzəm olaraq antitürk və anti-Azərbaycan təbliğatı apardığını təsdiq edir. Müasir dövrdə isə ABŞ, Rusiya, Fransa kimi böyük dövlətlərdə, habelə başqa ölkələrdə fəaliyyət göstərən erməni lobbisinin həmişəkindən daha güclü olmasını vurğulayan Y. Mahmudov özünün çoxsaylı tədqiqat əsərlərində yazır ki, güclü vasitələrə, mühüm mövqelərə və geniş maliyyə imkanlarına malik olan erməni lobbisi yaşadıqları ölkələrin xarici siyasətinə fəal təsir göstərir, Azərbaycanla münasibətlərin yaxşılaşdırılmasına ciddi əngəllər törədir (Mahmudov, 2002, s. 101-102; Mahmudov, 2005, s. 100-101; Mahmudov, 2011, s. 361). E.Nəsirov "Azərbaycan-ABŞ münasibətləri (1991-1997-ci illər)" adlı monoqrafiyasında "Azadlığı müdafiə aktı"nın 907-ci maddəsini təhlil edərkən onun Azərbaycana qarşı yönəlmiş sanksiya xarakteri daşıması və buna görə də ilkin dövrdə ABŞ-ın Cənubi Qafqaz regionu siyasətinin ziddiyyətli, Ermənistanın və erməni lobbisinin mənafelərinə xidmət etməsi qənaətinə gəlmişdir (Nəsirov, 1998, s. 32). M. Qasımlı antitürk təbliğatının ABŞ-dakı erməni cəmiyyətlərinin başlıca fəaliyyət istiqamətlərindən biri olması və 907-ci maddənin qəbul edilməsində onların mühüm rolu barədə yazır*:*

*"...erməni diasporu və lobbisinin təsiri altında ABŞ Konqresinin komitəsində Azərbaycana humanitar yardımın dayandırılması haqqında düzəliş qəbul edildi"* (Qasımlı, 2015, s. 155).

Bununla belə, M.Qasımlı 907-ci maddənin qəbulunun təkcə erməni diasporu və lobbisi amili deyil, bir sıra əsas amillər məcmusu ilə bağlı olması qənaətinə gəlir:

*"Erməni seçicilərinin sayca çox olduğu Massaçusets ştatından olan senator C. Kerri tərəfindən təqdim edilmiş bu düzəlişin qəbul edilməsinə təsir edən əsas amillər güclü erməni lobbisinin Azərbaycan əleyhinə apardığı təxribat və böhtan xarakterli təbliğat, ABŞ-dakı Azərbaycan icmasının zəifliyi, amerikalı qanunvericilərin Azərbaycan haqqında məlumatlarının olmaması və ya yanlış olması idi"* (Qasımlı, 2015, s. 156).

F. Həsənoğlu "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminin konfliktoloji aspektləri" adlı elmi məqaləsində 907-ci maddəni biləvasitə erməni diasporunun Azərbaycan əleyhinə apardığı informasiya müharibəsinin nəticələrindən biri hesab edir*:*

*"Ermənilərin xarici dövlətlərdə Azərbaycana qarşı apardıqları informasiya müharibəsinin nəticələrindən biri də Azərbaycanı ABŞ-ın yardımından məhrum edən, ABŞ Konqresinin qəbul etdiyi "Azadlığı müdafiə aktı"na 907-ci düzəlişdir"* (Həsənoğlu, 2005, s. 138).

ABŞ-dakı böyük erməni lobbisinin fəaliyyət göstərməsinin ikitərəfli münasibətlərin inkişafına təsir göstərməsi qənaətinə gələn R. Dadaşova yazır ki, ABŞ-da yaşayan ermənilərin əsas fəaliyyət istiqamətlərindən birini məhz "Azadlığı müdafiə aktı"nın 907-ci maddəsinin dəstəklənməsi təşkil edir (Dadaşova, 2019, s. 99). Z. Əliyev "Beynəlxalq münasibətlərdə diasporların rolu" adlı tədqiqat əsərində 907-ci maddənin qəbul edilməsinin biləvasitə erməni diasporu amili ilə bağlı olması qənaətinə gəlir:

*"Erməni diasporu Azərbaycan və ABŞ arasında olan anlaşılmazlıq və ziddiyyətlərdən məharətlə istifadə edərək 1992-ci ilin oktyabrın 24-də Konqresin 102-ci çağırış 2-ci sessiyasının qəbul etdiyi "Azadlığı müdafiə aktı"na 907-ci əlavənin qəbul edilməsinə nail oldu"* (Əliyev, 2001, s. 121).

Müəllif "Dünya diasporları" adlı başqa bir əsərində isə, sözügedən maddənin qəbul edilməsinin səbəbləri sırasına Azərbaycan lobbisinin zəif olması faktını da əlavə edir: *"Corc Buşun Senatın ona təqdim etdiyi "Freedom Support Act" qanun layihəsini tərəddüd etmədən imzalaması Azərbaycan lobbisinin zəifliyinin nəticəsi idi"* (Əliyev, 2005, s. 74). Eyni fikrə Vətən tarixşünaslığında İ. Hüseynov, S. Ələsgərova kimi tədqiqatçıların əsərlərində də rast gəlirik (Hüseynov, 2016, s. 41; Ələsgərova, 2021, s. 71-72). H. Cabbarlı "Ermənistanın xarici siyasəti (1991-2012)" adlı tədqiqat əsərində 907-ci maddənin ermənilərin diaspor təşkilatları və lobbiçilik fəaliyyətlərinin nəticəsi hesab edərək yazır:

*“Erməni diaspor təşkilatlarının lobbiçilik fəaliyyəti nəticəsində ABŞ-ın Azərbaycana maliyyə və iqtisadi yardım etməsini qadağan edən 907 saylı düzəliş qəbul edildi”* (Cabbarlı, 2014, s. 20). E. Arif “Ermənistan-Azərbaycan münaqişəsi sivilizasiyalararası münasibətlər kontekstində” adlı monoqrafiyasında 907-ci maddəni təhlil edərkən ABŞ Konqresinin bu qərarı verməyə məhz erməni lobbisi tərəfindən məcbur edilməsi qənaətinə gəlir: *“...erməni lobbisi Nümayəndələr Palatasını Azərbaycana qarşı 907 saylı qərar qəbul etməyə məcbur edə bilmişdi”* (Arif, 2011, s. 190). S. Qaraşova da “ABŞ-Rusiya: postsovet məkanı uğrunda mübarizə” adlı monoqrafiyasında 907-ci maddənin məhz ABŞ-dakı erməni lobbisinin təsiri altında qəbul edilməsi fikrini müdafiə edir (Qaraşova, 2018, s. 278). Müəllif belə hesab edir ki, bunu həm də ABŞ-ın xarici siyasətində xristian təəssübkeşliyi elementlərinin olması ilə izah etmək olar (Qaraşova, 2018, s. 283). V. Cəfərova 907-ci maddənin qəbulunu erməni icmasının Konqresə təsiri ilə əlaqələndirir: “*90-cı illərdə bu ölkədə ermənilərin fəaliyyətinin güclənməsinin nəticəsidir ki, nüfuzlu erməni icması ABŞ Konqresinin fikrini çaşdırmış, 1992-ci ilin oktyabrın 24-də Konqres hökumət səviyyəsində Azərbaycana hər cür yardımı qadağan edən qərar – “Azadlığı müdafiə aktı”na edilmiş 907-ci əlavəni qəbul etmişdi*” (Cəfərova, 2000, s. 27). 907-ci maddənin qəbul edilməsini biləvasitə erməni lobbisinin təsiri ilə əlaqələndirən B. Bayramova “Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində “907-ci maddə” həll olunmamış problem kimi” adlı elmi məqaləsində yazır: *“Bu qanun layihəsi senator Con Kerrinin və erməni lobbi təşkilatının dəstəyi ilə konqresmen Ueyn Ouens (Yuta ştatı) tərəfindən Konqresdə irəli sürüldü və 1992-ci ildə erməni lobbisinin təzyiqi nəticəsində Konqres tərəfindən qəbul olundu”* (Bayramova, 2011, s.188). S. Quliyev də öz elmi məqaləsində bunu təsdiq edir: “1992-ci ildə ABŞ Konqresi tərəfindən qəbul edilən, Azərbaycanı ABŞ-ın yardımından məhrum edən *“Azadlığı müdafiə aktı”na “907-ci düzəliş”in tətbiq edilməsində erməni lobbisinin fəaliyyətləri əhəmiyyətli rol oynamışdır”* (Quliyev, 2014, s. 59). A. Bağırova isə, “XX əsrin 90-cı illərində ABŞ-ın Cənubi Qafqaz münaqişələrində maraqlarının hüquqi əsasları” adlı elmi məqaləsində 907-ci maddənin qəbulunda erməni lobbisi amilini belə izah edir:*“Bu qanun erməni icmasının və lobbisinin təsiri ilə ABŞ-da Azərbaycan haqqında Azərbaycanın Ermənistanı guya blokadada saxlaması, Dağlıq Qarabağ ermənilərinə qarşı zorakılıq tətbiq etməsi kimi yalan informasiyalarının fonunda qəbul edilmişdi”* (Bağırova, 2019, s. 74).

Müqayisə apardıqda, ABŞ Konqresi tərəfindən 907-ci maddənin qəbul edilməsində erməni lobbisi və diasporunun həlledici rolunun olması faktına xarici tarixşünaslıqda da geniş rast gəlmək olar. Məsələn, amerikalı tədqiqatçı Maykl Kruassan yazır ki, Konqresdə 907-ci maddənin qəbulu məhz Amerikadakı güclü erməni lobbisinin təsiri altında baş verdi (Croissant, Aras, 1999, p. 243). İsveç tədqiqatçısı Svante Kornell "Dağlıq Qarabağ münaqişəsi" adlı əsərində 907-ci maddəni təhlil edərkən bu qənaətə gəlir: *"907-ci maddə əsasən ABŞ-dakı erməni icmasının güclü lobbiçilik səyləri nəticəsində qəbul edilib"* (Cornell, 1999, s. 99). Müəllif "Azərbaycan müstəqillikdən sonra" adlı digər bir irihəcmli tədqiqat əsərində də bunu təsdiq edir: "*907-ci maddə Ermənistan ilə ABŞ arasında əlaqələrin sürətlə qurulmasına töhfə vermiş erməni lobbisinin səyləri sayəsində qanun layihəsində yer aldı*" (Cornell, 2011, s. 406). 907-ci maddənin müəllifi senator Con Kerrinin ermənipərəst mövqeyi və erməni lobbisinin tərkibinə daxil olması faktı isə, xarici tarixşünaslıqda hətta bir sıra erməni tarixçilərinin özləri tərəfindən təsdiq edilir. Məsələn, A. Qalstyan "ABŞ-da erməni lobbisi: formalaşması və əsas fəaliyyət istiqamətləri (1915-2014-cü illər)" adlı namizədlik dissertasiyasında yazır: "*Con Kerri ABŞ senatında güclü erməni lobbisinin nümayəndəsi və 1995-2011-ci illərdə ABŞ Konqresindəki erməni məsələləri üzrə qrupun (Armenian Caucus) üzvü olmuşdur. O, erməni soyqırımının tanınması (1984, 2000, 2005, 2006 və 2010-cu illər), 1992-2012-ci illərdə ABŞ tərəfindən Ermənistana maliyyə yardımı ayrılması və 1994-2012-ci illərdə tanınmamış Dağlıq Qarabağ Respublikasına dair qanun layihələrinə, habelə anti-Azərbaycan mahiyyətli 907-ci maddəyə lobbiçilik edib*" (Galstyan, 2015, s. 236-237).

İkinci yanaşma, yəni 907-ci maddənin əlavə edilməsində Azərbaycanda o vaxtkı iqtidarın (Prezident Ə. Elçibəy hökuməti) yürütdüyü səriştəsiz xarici siyasətinin əsas rol oynaması fikrinə Vətən tarixşünaslığında çoxsaylı tədqiqat əsərlərində rast gəlmək olar. Bu mövqe daha çox Ə. Həsənov, R. Mehdiyev, İ. Hüseynova, N. Məmmədov, M. Atakişiyev, Ə. Nəsibova, U. Hüseynova və d. tədqiqatçıların əsərlərində, o cümlədən ümumiləşdirilmiş əsərlərdə rast gəlinir. Azərbaycan-ABŞ münasibətləri probleminin Vətən tarixşünaslığında ilk əsərlərdən biri olan Ə. Həsənovun "Azərbaycan-ABŞ: anlaşılmaz münasibətlərdən strateji tərəfdaşlığa doğru: (oktyabr 1991-avqust 1997)" adlı tədqiqat əsərində oxuyuruq: "*1992-ci ilin iyul-dekabr aylarında cəbhə-müsavat hakimiyyətinin yarıtmaz xarici siyasət fəaliyyəti ABŞ-da Azərbaycana qarşı nəinki olub qalan marağı, Azərbaycanın Qafqazda və bütövlükdə regionda kəsb etdiyi əhəmiyyəti də heçə endirdi. ...Məhz elə bu siyasətin nəticəsi və ABŞ-da güclü erməni diasporunun təsiri ilə 1992-ci ilin dekabr aylarında ABŞ Konqresi Azərbaycana hər cür yardım göstərilməsini qadağan edən "907-ci*

*maddə" adlı sənəd qəbul etdi*" (Həsənov, 1997, s. 33). Müəllifin məlumatından bəlli olur ki, sözügedən sənədin qəbul edilməsinə eyni vaxtda iki amil – Azərbaycanda o vaxtkı iqtidarın səriştəsiz xarici siyasəti və güclü erməni diasporunun təsiri səbəb olmuşdur. Müəllif "Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996)" adlı digər monoqrafiyasında Azərbaycandakı iqtidarın bu siyasi səriştəsizliyini iki səbəblə izah edir: birincisi, Azərbaycanın fövqəldövlət olan ABŞ üçün kəsb etdiyi əhəmiyyətin Ə. Elçibəy iqtidarı tərəfindən düzgün qiymətləndirilməməsi və ikincisi, ABŞ-da mövcud olan, etibarlı dayaq və güclü təsir mexanizmlərinə, təşkilati strukturlara malik erməni lobbisinin fəaliyyətinə lazımi əhəmiyyətin verilməməsi (Həsənov, 1998, s. 148). İ. Hüseynova öz monoqrafiyasında belə qənaətə gəlir ki, "Azadlığı müdafiə aktı"nın Azərbaycanın əleyhinə olan 907-ci maddəsinin qəbul edilməsi bir il ərzində hakimiyyətdə olmuş Xalq Cəbhəsinin ABŞ ilə xarici siyasətinin nəticəsi idi (Hüseynova, 2004, s. 337). Belə yanaşma N. Məmmədovun "Xarici siyasətin Azərbaycan modeli" adlı əsərində də özünü göstərir. 907-ci maddəni ABŞ-ın Azərbaycana qarşı tətbiq etdiyi cəza aktı kimi qiymətləndirən müəllif bunun səbəbini Azərbaycanda həmin vaxtkı iqtidarın uğursuz xarici siyasətində görür: "*Cəbhə-müsavat hakimiyyətinin yarıtmaz xarici siyasət fəaliyyəti hətta rəsmi Vaşinqtonda Azərbaycana qarşı cəza tətbiq edilməsinə imkan verdi. Bu yarıtmaz siyasətin nəticəsi olaraq 1992-ci ilin oktyabrın 24-də ABŞ Konqresi "907-ci düzəlişi" qəbul etdi*" (Məmmədov, 2012, s. 403-404). Bununla yanaşı, müəllif özünün "Xarici siyasət: reallıqlar və gələcəyə baxış" adlı başqa bir tədqiqat əsərində 907-ci maddənin qəbul edilməsinin təkcə bu amil ilə bağlı olmadığını, həmin maddənin tərəfdarı olan amerikalı konqresmenlərin də günahkar olduqlarını qeyd edir və bunu konqresmenlərin proseslərdən xəbərsiz olması ilə izah edir: *"907-ci düzəlişə səbəb kimi Azərbaycanın Dağlıq Qarabağı və Ermənistanı blokadada saxlaması göstərilir. Qəribəsi odur ki, bu bədnam düzəliş Ermənistanın Azərbaycan torpaqlarını işğal etdiyi vaxtlarda qəbul edilib. Konqresmenlər əslində proseslərdən xəbərsiz olduqlarını nümayiş etdiblər, ədalətsiz qərar qəbul edərək həqiqəti danıblar. "Qaynar nöqtəyə" "soyuq başla" yanaşmaq əvəzinə alovun üzərinə yanacaq atıblar"* (Məmmədov, 2013, s. 142-143).

Azərbaycanın ABŞ ilə münasibətlərinin ilk mərhələsini qeyri-müəyyən, mürəkkəb və anlaşılmaz xarakter kəsb etdiyini yazan M. Atakişiyev 907-ci maddənin qəbulunun məhz belə bir dövrün məhsulu olması qənaətinə gəlir:

"*AXC-Müsavat hakimiyyətinin dövründə ABŞ respublikamızla münasibətlərin inkişafına təkan verən bəzi addımlar atmağa çalışsa da, rəsmi Bakının qeyri-ardıcıl və məntiqsiz siyasəti bu addımların uğuruna təminat yaratmadı. Buna görə də, ilk mərhələdə əlaqələrdə qeyri-müəyyənlik hökm sürürdü. ...“Azadlığa dəstək aktı”na əlavə 907-ci maddə də məhz bu mürəkkəb və anlaşılmaz dövrün məhsuludur*" (Atakişiyev, 2004, s. 172).

Müəllif fikrinə davam edərək yazır ki, erməni lobbisinin də uğurlu fəaliyyət göstərməsində məhz belə bir xarici siyasət nəticəsində yaranmış əlverişli şərait mühüm rol oynamışdı: *“AXC-Müsavat iqtidarının səriştəsiz siyasəti erməni lobbisinə geniş imkanlar açdı və onlar bu imkandan maksimum səmərəli şəkildə istifadə edə bildilər”* (Atakişiyev, 2004, s. 172-173). Ə. Nəsibova Konqresin 907-ci maddəni qəbul etməsini Prezident Ə. Elçibəy hökumətinin ABŞ ilə münasibətlərində ən böyük uğursuzluğu kimi xarakterizə edir:

"*Bu hakimiyyətin ABŞ-la münasibətlərində ən böyük uğursuzluğu Konqres tərəfindən “Azadlığı müdafiə aktı”ına “907-ci düzəliş”in qəbul edilməsi oldu. ...Bu düzəliş Azərbaycanın beynəlxalq imicinə böyük zərbə olmaqla yanaşı, həm də böyük maliyyə yardımına ehtiyacı olan ölkənin iqtisadi durumuna da ciddi təsir etmiş oldu*" (Nəsibova, 2014, s. 51).

F. İsmayılov göstərir ki, ümumilikdə müstəqilliyimizin ilk illərində, yəni həm Prezident Ə. Elçibəyin, həm də ondan əvvəlki hökumətin xarici siyasət kursunun səriştəsizliyi nəticəsində ciddi yanlışlıqlara yol verilmişdir ki, bu da ABŞ ilə münasibətlərə öz mənfi təsirini göstərmişdi:

*“1991-93-cü illərdə xarici siyasətdə ciddi, çox hallarda bağışlanmaz səhvlər buraxmış əvvəlki iqtidarlar Qarabağ konfliktinin həllində də çoxlu əngəllər yaratmış, bu işdə ABŞ kimi qüdrətli dövlətin təsir imkanlarından istifadə etməmişlər”* (İsmayılov, 2001, s. 69).

Vətən tarixşünaslığında ikinci yanaşmaya R. Mehdiyevin tədqiqat əsərlərində geniş rast gəlmək olar. Belə ki, müəllif "Azərbaycan: qloballaşma dövrünün tələbləri" adlı monoqrafiyasında Azərbaycanda 1992-ci ildə hakimiyyətdə olan iqtidarın xarici siyasət sferasında subyektivlik və diletantlıq nümayiş etdirməsi və bunun da nəticələrindən birinin məhz 907-ci maddə olmasını yazır:

"*O vaxtkı iqtidarın subyektivizmi və qeyri-peşəkarlığı Azərbaycanla bir sıra dövlətlər arasında münasibətlərdə böhrana gətirib çıxardı. Məhz həmin dövrdə ABŞ Konqresi “Azadlığa dəstək aktı”na əsassız, heç bir faktiki təsdiqi olmayan düzəliş qəbul etdi*" (Mehdiyev, 2005, s. 85).

R. Mehdiyev erməni lobbisinin təsiri amilini qeyd edərkən də, bunu o vaxtkı iqtidarın balanslaşdırılmış xarici siyasət apara bilməməsi ilə əlaqələndirir:

*"Ölkə rəhbərliyinin ölçülüb-biçilmiş, tarazlı siyasət aparmağa qadir olmaması, beynəlxalq strukturların fəaliyyət mexanizmlərindən bixəbərliyi bir qrup erməni lobbisinə "Azadlığa dəstək aktı"na ədalətsiz düzəlişi ABŞ-ın qanunverici orqanından keçirməyə imkan verdi"* (Mehdiyev, 2005, s.85).

Müəllif "Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə" adlı digər tədqiqat əsərində də eyni fikri təsdiq edir: "Azərbaycanın səriştəsiz və tarazlaşdırılmamış xarici siyasəti nəticəsində ABŞ Konqresi "Azadlığa dəstək aktı"na Azərbaycana hər cür hökumət yardımını qadağan edən 907-ci düzəlişi qəbul edir" (Mehdiyev, 2006, s. 476-477).

E. Nəsibov U. Hüseynovaya istinadən ABŞ Konqresi tərəfindən 907-ci maddənin qəbul edilməsini Prezident Ə.Elçibəy hökumətinin Qərbin, ilk növbədə ABŞ-ın geosiyasi maraqlarına uyğun olmayan xarici siyasət yürütməsi ilə əlaqələndirərək ikinci yanaşma nöqteyi-nəzərindən çıxış edir. O, belə hesab edir ki, məhz 1992-ci ildə Azərbaycanın Rusiya Federasiyası ilə hərbi müqavilə imzalaması ABŞ Konqresində narazılığa səbəb olmuş və erməni lobbisi yaranmış vəziyyətdən məharətlə istifadə etmişdir (Nəsibov, 2006, s. 55). Lakin, Vətən tarixşünaslığındakı bu mövqenin nə dərəcədə həqiqətə uyğun olub-olmaması bir qədər mübahisəli səslənir. Çünki, müqayisə apardıqda görürük ki, Ermənistan Respublikası da yenicə müstəqillik qazandığı illərdə Rusiya ilə hərbi əməkdaşlıq və hərbi yardım sahəsində çoxsaylı müqavilələr bağlamışdı: 25 dekabr 1991-ci ildə "Ermənistan Respublikası və Rusiya Federasiyası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə", 21 avqust 1992-ci ildə "Ermənistan Respublikası və Rusiya Federasiyası Silahlı Qüvvələrinin qarşılıqlı texniki və maddi təminat prinsipləri haqqında saziş", 3 noyabr 1994-cü ildə "Ermənistanın və Rusiya Federasiyasının Müdafiə Nazirlikləri arasında hava hücumundan müdafiə sahəsində əməkdaşlıq haqqında saziş", 16 mart 1995-ci ildə "Ermənistan Respublikası ərazisində Rusiya hərbi bazasının yaradılması haqqında saziş" və s. Amma bütün bunlara rəğmən ABŞ Konqresində Ermənistana qarşı "907-ci düzəliş"ə bənzər hər hansı bir qanunvericilik aktı qəbul edilməmişdi.

Vətən tarixşünaslığında ümumiləşdirilmiş əsərlərdə də ikinci yanaşma özünü göstərir. Belə ki, 7 cildlik "Azərbaycan tarixi" əsərinin sonuncu cildində vurğulanır ki, ABŞ Konqresi tərəfindən "Azadlığı müdafiə aktı"na edilən 907-ci əlavə AXC-Müsavat tandemi hökumətinin xarici siyasətdə ciddi qüsurlara yol verməsinin, böyük dövlətlərin iqtisadi və siyasi maraqlarına əsaslanan dünya siyasətini düzgün qiymətləndirməməsi nəticələrindən biri olmuşdur (Azərbaycan tarixi. Yeddi

cilddə. VII cild, 2008, s. 259). Azərbaycan Milli Ensiklopediyasının "Azərbaycan" adlanan xüsusi cildində isə qeyd edilir ki, Xalq Cəbhəsinin lideri Ə.Elçibəyin prezident seçilməsindən sonra hakimiyyətin yeritdiyi xarici siyasət digər dövlətlərlə münasibətlərdə gərginlik yaratmış, "Azadlığı müdafiə aktı"nın 907-ci maddəsi də məhz belə bir şəraitdə ABŞ Konqresində qəbul edilmişdir (Azərbaycan Milli Ensiklopediyası, "Azərbaycan" cildi, 2007, s. 327).

Qeyd etmək lazımdır ki, Vətən tarixşünaslığındakı ikinci yanaşmaya da xarici tarixşünaslıqda da bir sıra müəlliflərin əsərlərində rast gəlmək olar. Məsələn, Rusiya tədqiqatçısı Eduard Karayev "Heydər Əliyevin prezidentliyi dövründə Azərbaycan Respublikasının xarici siyasət oriyentirlərində ABŞ-ın yeri" adlı elmi məqaləsində nə üçün Konqres tərəfindən 907-ci maddənin qəbul edilməsi sualına cavab axtararkan bunun Azərbaycan hökumətinin qeyri-peşəkar xarici siyasət xətti ilə bağlı olması qənaətə gəlir:

"*1992-ci il ikitərəfli münasibətlərdə gərginliklə yadda qaldı. Ə. Elçibəyin başçılıq etdiyi Azərbaycan hökumətinin qeyri-peşəkar xarici siyasət yürütməsi nəinki Amerikanın Azərbaycana olan marağının itməsinə səbəb oldu, hətta Vaşinqtonun bu Cənubi Qafqaz respublikasına qarşı ciddi sanksiyalar tətbiq etməsinə gətirib çıxardı*" (Karayev, 2023, c.17).

Rusiyalı müəllif erməni lobbisi amilini qeyd edərkən bunu sözügedən xarici siyasətin nəticəsi hesab edir: "*Belə bir siyasətin nəticəsi olaraq, habelə ABŞ-dakı əhəmiyyətli erməni lobbisinin təzyiqi ilə ABŞ Konqresi "Azadlığı müdafiə aktı"nın 907-ci maddəsini qəbul etdi*" (Karayev, 2023, s. 17).

Beləliklə, 1992-ci ildə ABŞ Konqresi tərəfindən anti-Azərbaycan xarakterli 907-ci maddənin qəbul edilməsinin səbəbləri ilə bağlı Vətən tarixşünaslığında fərqli yanaşmalar olsa da, onların müqayisəli təhlilindən belə bir nəticə çıxarmaq olar ki, ABŞ-ın Azərbaycanla bağlı xarici siyasətində sözügedən maddənin yer alması konkret bir səbəblə deyil, səbəblər kompleksi ilə bağlıdır. Bu səbəblər kompleksinin içərisində şübhəsiz ki, erməni lobbisi və diasporu amili son dərəcə önəmli yer tutur. Çünki, ABŞ-ın siyasi sistemində lobbi hərəkatları da mühüm rol oynayır və qanunverici hakimiyyətin fəaliyyətinə müəyyən dərəcədə təsir etmə gücünə malikdir. Lakin, yalnız müəyyən dərəcədə. Belə ki, planetimizin ən inkişaf dövləti olan ABŞ-ın xarici siyasətinin prioritet istiqamətlərinə, onun bu və ya digər regiondakı geosiyasətinə əhəmiyyətli dərəcədə təsir etmək istənilən lobbinin imkanları xaricindədir, eləcə də erməni lobbisinin. Əks təqdirdə, ABŞ-ın supergüc olması faktı tamamilə şübhə altına düşər. Deməli, ABŞ kimi fövqəldövlətin hər hansısa təzyiqlər altında tələm-tələsik və rasional deyil, emosional şəkildə "907-ci düzəliş" qərarını

verməsi bir o qədər inandırıcı səslənmir. Buradan belə nəticə çıxarmaq olar ki, "Azadlığı müdafiə aktı"nın 907-ci maddəsinin qəbul edilməsində Azərbaycanda həmin dövrdəki hökumətin xarici siyasət sahəsindəki xətaları, qeyri-peşəkarlığı da önəmli rol oynamışdı.

## IV. Böyük Buş administrasiyası dövrünün sonlarında ABŞ-Azərbaycan münasibətləri Vətən tarixşünaslığında

"Azadlığı müdafiə aktı"nın Azərbaycan Respublikasının nüfuzuna vurulan ağır zərbə kimi səciyyələndirilən 907-ci maddəsi təbii ki, yenicə müstəqilliyini bərpa etmiş Azərbaycan ilə ABŞ arasındakı münasibətlərə öz mənfi təsirini göstərdi. Çünki, bədnam 907-ci maddə həm Azərbaycanı dünyanın yeganə fövqəldövlətinin humanitar yardımdan məhrum edir, həm də M.Qasımlının təbirincə desək, bütün Cənubi Qafqaz regionunda insan haqlarına hörmət prinsipinə zərbə endirir, sülhün bərqərar olmasına mane olur, Azərbaycanın "böyük dövlətlər və onların kiçik qonşuları arasında gizli razılaşmaların qurbanı" olması təəssüratını yaradır, ABŞ-ın mövqeyinin obyektivlik və ədalətliliyinə şübhələr doğururdu (Qasımlı, 2015, s. 156). Sözügedən maddə ilə Azərbaycan postsovet məkanında Birləşmiş Ştatların rəsmi yardımından qanunvericilik yolu ilə məhrum edilən yeganə dövlət oldu. Halbuki, İ.Musanın da müqayisə apardığı kimi, hətta Ağ Evin sonralar "şər üçbucağı"nın üzvü hesab etdiyi Şimali Koreya belə həmin vaxt ABŞ-ın müvafiq yardımını alırdı (Musa, 2011, s. 511). Ə.Həsənov 907-ci maddənin nəticəsini belə təsvir edir:

"*Hərtərəfli iqtisadi və siyasi yardıma ehtiyacı olan Azərbaycan təkcə ABŞ-ın deyil, eyni zamanda Vaşinqton ilə bağlı olan və bütün beynəlxalq məsələlərdə onun rəyini nəzərə alan digər ölkələrin də dəstəyindən məhrum oldu*" (Həsənov, 1998, s. 148).

Beləliklə, Azərbaycan Respublikası özünün haqq işi uğrunda apardığı mübarizədə nəinki Cənubi Qafqaz regionunda, eləcə də beynəlxalq arenada təklənmiş vəziyyətə düşdü, bunun əksinə olaraq təcavüzkar Ermənistan qüvvələri isə, bir çox dünya dövlətlərinin dəstəyini qazanaraq daha da şirnikləşmiş vəziyyətə düşdü.

İki dövlət arasında sıx münasibətlərin bərqərar olması üçün heç bir əlverişli perspektivin olmadığı belə bir çətin vəziyyətdə Azərbaycan tərəfi 907-ci maddənin ləğv edilməsi və ya heç olmazsa, ən azından bu maddədən irəli gələn qadağaların aradan qaldırılmasına, yumşaldılmasına yönəlmiş müəyyən addımlar atdı. İlk addımlarda biri o oldu ki, Azərbaycan Prezidenti Ə. Elçibəyin 1992-ci ilin sentyabrında ABŞ-ın Azərbaycandakı səfiri təyin olunan Riçard Mayls ilə görüşlərində, Azərbaycanın xarici işlər naziri T. Qasımovun Ağ Ev rəsmiləri ilə danışıqlarında

907-ci maddə ilə əlaqədar məsələlər nəzərdən keçirildi. Bir ay sonra A. Dyuinin başçılıq etdiyi ABŞ nümayəndə heyətinin Azərbaycana səfər etməsini bu istiqamətdə atılan növbəti addım hesab etmək olar (Məmmədov, 2021, s. 510). Digər mühüm addım ABŞ-ın paytaxt şəhəri Vaşinqtonda Azərbaycan səfirliyinin təsis edilməsi və Azərbaycan Respublikası Prezidentinin 13 noyabr 1992-ci il tarixli fərmanına əsasən 51 yaşlı diplomat Hafiz Paşayevin ABŞ-da Azərbaycan Respublikasının fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi oldu. Azərbaycan səfirliyi iki ölkə arasında bərabərhüquqlu münasibətlərin bərqərar edilməsi, Azərbaycan ilə bağlı doğru və dürüst məlumatların yayılması, xüsusən də 907-ci maddənin mahiyyətcə qeyri-obyektiv və ədalətsiz xarakterli olduğunu qarşı tərəfə çatdırmaq kimi istiqamətlərdə öz fəaliyyətinə başladı. Təbii ki, həmin vaxt ABŞ-da erməni diasporu və lobbisinin xeyli güclü olması səbəbindən bütün bu vəzifələri həyata keçirmək səfirliyimiz üçün heç də asan olmadı.

**Nəticə**

Beləliklə, Azərbaycan Respublikasının dünyanın əsas güc mərkəzlərindən biri kimi beynəlxalq münasibətlərin tənzimlənməsində həlledici rola malik ABŞ ilə münasibətləri XX əsrin 90-cı illərinin ikinci yarısından başlayaraq Vətən tarixşünaslığındakı çoxsaylı araşdırmalarda – monoqrafiya, dərslik, elmi məqalələr, dissertasiya işlərində və s. geniş şəkildə öz əksini tapmış, mühüm tədqiqat obyekti olmuşdur. Azərbaycan-ABŞ münasibətləri probleminin Vətən tarixşünaslığı üzrə çoxsaylı tədqiqat əsərlərinin təhlilindən belə qənaətə gələ bilərik ki, Böyük Buş administrasiyası dövründə – 1991-1993-cü illərdə ABŞ-ın yenicə müstəqilliyini bərpa etmiş Azərbaycan Respublikası ilə ilk siyasi-diplomatik münasibətlərinin qurulması sahəsində bir sıra mühüm addımlar atılsa da (ABŞ-ın Azərbaycanın dövlət müstəqilliyini tanıması, hər iki ölkədə səfirliklərin açılması və s.), ümumilikdə bu dövrdə ikitərəfli münasibətlər daha çox mürəkkəb və anlaşılmaz xarakter kəsb etmişdir. İki ölkə arasında münasibətlərdə anlaşılmazlıq və ziddiyyətlərin aradan qaldırılması isə əsasən 1993-cü ilin ikinci yarısından etibarən, yəni görkəmli dövlət xadimi Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra başlamış, XXI əsrin əvvəllərinə qədər Azərbaycan-ABŞ münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə kimi yüksəlmişdir. Çoxsaylı tarixşünaslıq materiallarını elmi dövriyyəyə cəlb etməklə tədqiqat aparmaq konkret xronoloji çərçivədə Azərbaycan-ABŞ münasibətlərinin keçdiyi inkişaf dinamikasını müxtəlif tədqiqatçı-alimlərin fərqli baxış bucaqları nöqteyi-nəzərindən təhlil etməyə əlverişli şərait yaratmaqla yanaşı, həm də ikitərəfli münasibətlərin gələcək perspektivlərini müəyyənləşdirmək baxımından elmi-siyasi əhəmiyyət kəsb edir.

## Ədəbiyyat siyahısı

Arif, E. (2011). *Ermənistan-Azərbaycan münaqişəsi sivilizasiyalararası münasibətlər kontekstində*. Elm və təhsil.

Atakişiyev, M. (2004). *Azərbaycanın yeni neft siyasəti və iqtisadi yüksəliş*. Azərbaycan.

*Azərbaycan Milli Ensiklopediyası*. Azərbaycan cildi (2007). Azərbaycan Milli Ensiklopediyası Elmi Mərkəzi.

Azərbaycan tarixi. Yeddi cilddə. VII cild (2008). Elm.

Bağırova, A. (2019). *XX əsrin 90-cı illərində ABŞ-ın Cənubi Qafqaz münaqişələrində maraqlarının hüquqi əsasları*. Geostrategiya, *aylıq ictimai-siyasi, elmi-populyar jurnal,* 01 (49), s.73-76.

Badalbeyli, N (2005). *Nauchnie i kulturnie svyazi Azerbaydjanskoy Respubliki i SSHA (90-e gody XX veka).* [Dis. kand. ist. Nauk].

Bayramova, B. (2011). Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində "907-ci maddə" həll olunmamış problem kimi. *Tarix və onun problemləri, nəzəri, elmi, metodik jurnal,* 3, s.188-192.

Bəşirova, A. (2007). *Azərbaycan-ABŞ münasibətləri Amerika mətbuatında ("Nyu York Tayms" qəzetinin materialları əsasında: 1991-2001-ci illər)* [Siyasi e. n. dər. al. üçün təq. ol. Dissertasiya].

Cabbarlı, H. (2014). *Ermənistanın xarici siyasəti (1991-2012).* ATSAM.

Cafersoy, N. (2001). *Elçibey dönemi Azerbaycan dış politikası (Haziran 1992-Haziran 1993). Bir bağımsızlık mücadelesinin diplomatik öyküsü.* Avrasya Stratejik Araştırmalar Merkezi.

Cəfərova, V. (2000). *Dünya dövlətlərinin siyasi sistemi: ABŞ*. Elm.

Cornell, S. (1999). *The Nagorno-Karabakh conflict.* Uppsala University.

Cornell, S. (2011). *Azerbaijan since independence*. Armonk.

Croissant, M., Aras, B. (1999). *Oil and Geopolitics in the Caspian Sea Region.* Praeger.

Dadaşova, R. (2019). *Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi: tarixi, siyasi və hüquqi təhlil*. Mütərcim.

Dadaşova, R. (2021). *Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasının daimi üzvləri ilə əməkdaşlığı.* ADMİU-nun mətbəəsi.

Əhmədov, E. (2015). *Ermənistanın Azərbaycana təcavüzü: beynəlxalq təşkilatların və böyük dövlətlərin siyasəti*. Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu.

Ələsgərova, S. (2021). ABŞ-da Azərbaycan lobbisinin fəaliyyəti. *Pedaqoji Universitetin Xəbərləri (humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası), dövri elmi jurnal,* 69 (1), 67-76.

Əliyev, Z. (2001). *Beynəlxalq münasibətlərdə diasporların rolu.* Nurlan.

Əliyev, Z (2005). *Dünya diasporları.* Qismət.

Galstyan, A. (2015). *Armyanskoye lobbi v SSHA: formirovaniye i osnovniye napravleniya deyatelnosti (1915-2014 gg.)* [Diss. kand. ist. Nauk].

Garashova, S. (2005). *Geostrateghicheskiye interesy Rossii i SSHA na Yuzhnom Kavkaze* [Diss kand. polit. Nauk].

Guseynova, U. (2000). *Azerbaydan-SSHA. Perspektivy sotrunichestva (90-ye gody).* Nurlan.

Guseynova, U. (2003). *Azerbaydanskaya Respublika vo vneshnepoliticheskikh izmeneniyakh SSHA* [Dis. kand. polit. Nauk].

Heydərova, X (2013). ABŞ-Azərbaycan münasibətlərinə soyuqluq gətirən amillər. *Tarix və onun problemləri, nəzəri, elmi, metodik jurnal, 2, 381-386.*

Heydərova, X. (2017). *ABŞ-ın Cənubi Qafqaz siyasəti kontekstində ABŞ-Azərbaycan Respublikası münasibətləri* [Siyasi e. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dissertasiya].

Həmidov, H. (2019). *Xalq Cümhuriyyəti dövründə Azərbaycan-ABŞ münasibətləri.* Xalq qəzeti, *gündəlik ictimai-siyasi qəzet*, № 115.

Həsənoğlu, F. (2005). *Ermənistan-Azərbaycan Dağlıq Qarabağ probleminin konfliktoloji aspektləri*. Qismət.

Həsənov, Ə. (1997). *Azərbaycan və ATƏT.* İşıq.

Həsənov, Ə. (1997). *Azərbaycan-ABŞ: anlaşılmaz münasibətlərdən strateji tərəfdaşlığa doğru: (oktyabr 1991 – avqust 1997).* Azərbaycan Universiteti.

Həsənov, Ə (1998). *Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996).* Azərnəşr.

Həsənov, Ə (2000). *Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996).* Elm.

Həsənov, Ə (2005). *Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti.* Azərbaycan.

Hüseyn, B (2013). *ABŞ-ın Cənubi Qafqaz siyasətində neft amili* [Siyasi e. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dissertasiya].

Hüseynli, R. (2023). *Azərbaycan və ABŞ beynəlxalq terrorizmə qarşı mübarizədə* [Tarix üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis.-nın avtoreferatı].

Hüseynov, İ. (2016). *Azərbaycanın ABŞ-da tanıdılması: maraq qrupları və diaspor*. Geostrategiya, 5 (35), s.40-43.

Hüseynov, İ. (2022). *ABŞ-da Azərbaycan diasporunun yaranması və inkişafı (XX əsrin sonu-XXI əsrin əvvəlləri)* [Tarix üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis.-nın avtoreferatı].

Hüseynova, İ. (2004). *Müstəqil Azərbaycan dövlətinin qurucusu.* Təhsil.

İbrahimov, M. (2020). *Sahilyanı dövlətlərin xarici siyasətində Xəzər problemi (XX əsrin sonu–XXI əsrin əvvəlləri).* Turxan NPB.

İsmayılov, F. (2001). *Qarabağ konflikti ABŞ-ın qlobal siyasəti kontekstində.* Azərbaycan Milli Ensiklopediyası nəşriyyatı.

Kamandari-Məmmədova, A. (2017). *ABŞ-da Azərbaycan diasporunun lobbiçilik fəaliyyəti* [Tarix üzrə f.d. elmi dər. al. üç. təq. ed. dis.-nın avtoreferatı].

Karayev, E. (2023). Mesto SSHA vo vneshnepoliticheskikh oriyentirakh Azerbaydjanskoy Respubliki vo vremya prezidentstva Geydara Aliyeva. *Universum: obshchestvennyye nauki, nauchnyy zhurnal, 11* (102), 17-19.

Mahmudov, Y. (2002). *Azərbaycan tarixində Heydər Əliyev şəxsiyyəti.* Təhsil.

Mahmudov, Y. (2005). *Azərbaycan: qısa dövlətçilik tarixi.* Təhsil.

Mahmudov, Y. (2011). *Heydər Əliyev ideyalarının zəfər yürüşü.* Təhsil.

Mehdiyev, R. (2005). *Azərbaycan: qloballaşma dövrünün tələbləri.* XXI – Yeni Nəşrlər Evi.

Mehdiyev, R. (2006). *Milli məfkurə, dövlətçilik, müstəqillik yolu ilə. 2 cilddə. I cild.* XXI – Yeni Nəşrlər Evi.

Mehdiyev, R. (2015). *İkili standartların dünya nizamı və müasir Azərbaycan.* Şərq-Qərb.

Məmmədli, B (2023). Azərbaycan Respublikası və ABŞ arasında ilk siyasi-diplomatik münasibətlərin qurulması Vətən tarixşünaslığında. *Tarix və onun problemləri, nəzəri, elmi, metodik jurnal,* 3, 273-278.

Məmmədov, Ç. (2021). *Beynəlxalq münasibətlər tarixi. Müasir dövr: iki hissəli. İkinci hissə: Yeni dünya nizamı 1991-2021-ci illər*. Elm və təhsil.

Məmmədov, N. (2012). *Xarici siyasətin Azərbaycan modeli.* Çaşıoğlu.

Məmmədov, N. (2013). *Xarici siyasət: reallıqlar və gələcəyə baxış.* Qanun.

Məmmədov, Ş. (2018). *Azərbaycan Respublikasının ABŞ-la münasibətləri: siyasi təhlil* [Siyasi e. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dissertasiya].

Musa, İ. (2011). *Çağdaş beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti*. Bakı Universiteti.

Nəsibov, E. (2006). *ABŞ və Türkiyənin Qafqaz geosiyasi regionunda strateji maraqları.* Çıraq.

Nəsibova, Ə. (2014). *Azərbaycan Respublikasının neft strategiyası və ABŞ-ın Qafqaz siyasəti (1991-2008-ci illər)* [Tarix üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dissertasiya].

Nəsibova, Ə. (2014). *Azərbaycan Respublikasının neft strategiyası və ABŞ-ın Qafqaz siyasəti (1991-2008-ci illər)* [Tarix üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. Dis].

Nəsirov, E. (1998). *Azərbaycan-ABŞ münasibətləri (1991-1997-ci illər).* Qanun.

Pashayev, H. (2006). *Racing Up Hill.* Global Scholarly Pubns.

Paşayev, H (2007). *Bir səfirin manifesti.* Şərq-Qərb.

Piriyev, A (2005). *Siyasi strategiya və milli təhlükəsizlik.* BDU.

Qaraşova, S. (2018). *ABŞ-Rusiya: postsovet məkanı uğrunda mübarizə*. Səda.

Qasımlı, M. (1996). *Azərbaycan beynəlxalq münasibətlər sistemində: 1991-1995-ci illər.* Gənclik.

Qasımlı, M. (2015). *Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003): 2 hissədə. II hissə.* Mütərcim.

Quliyev, S. (2014). *Azərbaycan Respublikasının neft strategiyasının xarici siyasətinə təsiri.* Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Xəbərləri, *dövri elmi jurnal,* 3, 54-63.

Quliyeva, G (2010). *Azərbaycan yeni geosiyasi münasibətlər sistemində* [Siyasi e. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis].